

Oqtay Rza,
Əməkdar müəllim

## Kaş onda olaydı...

Yaşım üstələyib duyğularımı,
Uzaq səfərlərə qalmışam həsrət;
Düzürəm sıraya uğurlarımı,
Səhvim, nöqsanım da az deyl fəqət.
Nə var-dövlətim var, nə də daxılım,
Gah çıxır zirvəyə, gah enir dərdim;
O zaman olsaydı indiki ağlım,
İki-üç xarici dil öyrənərdim.

Yolumda şam kimi can yandırıblar,
Bədxaha dostumsan deməyim xəta;
Məni surətpərəst adlandırıblar,
İnsafsız gözəli sevməyim xəta.
Yuxum səhərədək ərşə çəkilib,
Ürəyim elə bil şişə çəkilib;
Harda büdrəmişəm, harda çaşmışam?
Böyüklər içində uşaqlaşmışam;
Kim idi xeyirxah, kim idi zalım?
Kaş onda olaydı indiki ağlım.

## Belə yaşamaqdan çox xoşum gəlir

Fəxri ad, mükafat alsa da yenə
Dəridən, qabıqdan çıxanlar artıb;
Yüksək Prezident təqaüdünə
Göz dikən, ümidlə baxanlar artıb.
Köhnə evimizin varisiyəm Mən,
Sanki arabamda daş yox, qum gəlir;
Nə var, nə dəbdəbə hərisiyəm Mən,
Belə yaşamaqdan çox xoşum gəlir.

Hərdən azalanda gücü dolların,
Tacirin yuxusu çəkilir ərşə;
Durub keşiyində haram pulların,
Müftəxor narahat gedəcək işə.
Dözüm nişanəsi - saçımdakı dən,
Əzazil yumşalıb, olub mum, gəlir;
Nə var, nə dəbdəbə hərisiyəm Mən,
Belə yaşamaqdan çox xoşum gəlir.

Martin sobasında dəmir bişərək,
Əriyir, soyuyub polada dönür.
Dəhşət - flüger tək səmt dəyişərək,
Rəis nökərə də, qula da dönür.
Bir üzün yiyəsi, buyam əzəldən,
Tutaq ki, üstümə lap qoşun gəlir;
Nə var, nə dəbdəbə hərisiyəm Mən,
Belə yaşamaqdan çox xoşum gəlir.

Bumeranq kimidir sözün doğrusu,
Həyatda az deyil "Mauqli", "Tarzan",
Uşaq alverçisi, adam oğrusu
Hələlik qaz vurub, doldurur qazan.
Nə qədər yaz, payız görəsiyəm mən?
Bəlkə axırıncı, sərt qışım gəlir;
Nə var, nə dəbdəbə hərisiyəm Mən,
Belə yaşamaqdan çox xoşum gəlir.

**Xalqımızın sevimli şairi Oqtay Rzanı doğum günü münasibətilə ürəkdən təbrik edirik.**

Ədalət.-2016.-2 noyabr.-S.4.